

"Bizim gənc nəslimiz bilikli, dünyaya açıq olmalıdır, dünyada gedən proseslərə bələd olmalıdır, izləməlidir. Ən qabaqcıl texnologiyalar Azərbaycana gəlməlidir. Bir sözlə, ölkənin inkişafı məhz bu istiqamətdə davam etməlidir. Məhz bilik, məhz savad, yeni texnologiyalar - bunlar ölkəyə uğur, rifah gətirir, inkişaf, müasirlik gətirir".

**İlham Əliyev**

Azərbaycan Respublikasının Prezidenti

# 2010/2011-ci TƏDRİS İLİNDƏ AZƏRBAYCAN RESPUBLİKASININ ALİ MƏKTƏBLƏRİNƏ DAXİL OLMUŞ TƏLƏBƏLƏRƏ PREZİDENT TƏQAÜDÜNÜN VERİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN

# SƏRƏNCAMI

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident təqaüdünün təsis edilməsi haqqında" 3 sentyabr 2001-ci il tarixli 564 nömrəli Fərmanına uyğun olaraq qərara **alıram:**

1. 2010/2011-ci tədris ilində tələbə qəbulu imtahanlarında ixtisas qrupları üzrə ən yüksək nəticə göstərmiş və Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş aşağıdakı tələbələrə Prezident təqaüdü verilsin:

Abdinova Ayşən Maşallah qızı
Abdullayeva Günel Eldar qızı
Ağakişiyeva Elnarə Elburus qızı
Ağazadə Sevinc Mircəfər qızı
Axundzadə Murad Rauf oğlu
Allahverdiyev Cəlal Şəmsəddin oğlu
Aslanova Fəridə Azad qızı
Azayev Fərid Vazexoviç
Babayeva Gülşən Gülməmməd qızı
Bağırzadə Əsmər İlqar qızı
Baxşəliyeva Esmira Qəhrəman qızı
Balayeva Fidan Fərman qızı
Bayramov Vüqar Rasim oğlu
Bədəlova Könül Eyvaz qızı
Bəkirzadə Aqşin İlham oğlu
Bəşirli Aysel Nazir qızı
Cabbarlı Mərcan Elxan qızı
Cabbarlı Urfan İqrar oğlu
Əbilhəsənli Səbuhi Nurəddin oğlu
Əfəndiyev Nicat Müşfiq oğlu
Əhmədov Xaliq Elxan oğlu
Əhmədov Oruc Bahəddin oğlu
Əhmədova Günel Mehdi qızı
Ələkbərli Fərid Xalıq oğlu
Ələsgərov Abbas Arzu oğlu
Ələsgərzadə İnci İlham qızı
Əliyev Nizami Yaqub oğlu
Əliyev Seyfəlpaşa Elşən oğlu
Əliyev Ulfan Malik oğlu
Əliyeva Çinarə Fərman qızı
Əliyeva Könül Zəfər qızı
Əliyeva Ülkər Arzu qızı
Əlizadə Yaqub Şakir oğlu
Əsədova Günel Bəxtiyar qızı
Faiqli Raqif Seymur oğlu
Familzadə Selcan Natiq qızı
Feyzullayev Bünyad Qurban oğlu
Fətullayeva Türkanə Səməd qızı
Gözəlov Nəsir Davud oğlu
Hacıyev Fərahim Əjdər oğlu
Həsənli Məmmədrəhim Şahin oğlu
Həsənov Bahadur Əhməd oğlu
Həsənov Elvin Mehman oğlu
Həsənov Orxan Nazim oğlu
Həsənova Aydan Aydın qızı
Həsənova Güleyşə İlqar qızı
Hüseynli Fidan Vahid qızı
Hüseynli Qulu Nazim oğlu
Hüseynov Yusif Fərman oğlu
Hüseynova Şəhla Yaqub qızı
Xeyirxəbərli Qiyafət Yaqub qızı
İbrahimli Nihad İbrahim oğlu
İbrahimova Məhsəti Sahib qızı
İsmayılov Toğrul İsmayıl oğlu
İsmayılov Ülvi Əfqan oğlu
İsmayılzadə Məhəmməd Nazim oğlu
Kazımov İsmayıl Əkbər oğlu
Kərimov Tahir Mətləb oğlu
Kərimzadə Nüşabə Asif qızı
Qasımlı Nilufər Abbas qızı
Quliyev Fərhad Vahid oğlu
Quliyeva Şəmsiyyə Xaqani qızı
Quluzadə Sevinc Sahib qızı
Qurbanova Aybəniz Elman qızı
Mahmudova Aytac Əbilfəz qızı
Məcidova Zərinə Dilavər qızı
Məhərrəmli Aydan Qəhrəman qızı
Məmmədalıyev Seymur Yaqub oğlu
Məmmədəliyev Fərid Elçin oğlu
Məmmədli Elvin Gündüz oğlu
Məmmədli Nəriman İsmixan oğlu
Məmmədli Rəna Kamal qızı
Məmmədzadə Qoşqar İlqar oğlu
Məsimov İlkin Natiq oğlu
Mikayılzadə Əzizağa Tələt oğlu
Mirzəxanov Vüqar Elçin oğlu
Mirzəyev Natiq Arif oğlu
Mirzəzadə Eltun Əlövsət oğlu
Muradlı Polad Güloğlan oğlu
Muradov Rüstəm Elyar oğlu
Musayeva Günel Mahir qızı
Mustafayev Fərid Vüsal oğlu
Nəhmətova Bəhruzə Adil qızı
Nəsirov Fərid Rəfail oğlu
Nəzirov Anar Namiq oğlu
Novruzova Gülarə Yalçın qızı
Ramazanov Aydın Nadir oğlu
Ramazanov Rəşid Sahib oğlu
Rəfili Adil Maşallah oğlu
Rüstəmov Çinar Eyvaz oğlu
Salahov Cavid Adil oğlu
Səfərəliyev Şamil Amil oğlu
Səmədli Şəhla İlham qızı
Sultanlı Sirac Ramiz oğlu
Süleymanov Tərlan Nizami oğlu
Şirinli Emil Şirin oğlu
Şükürlü Zəfər Xanoğlan oğlu
Tağıyeva Arzu İdrak qızı
Tanrıverdiyeva Aygül Oktay qızı
Usubov Yusif Şakir oğlu
Vəlizadə Nurlan İkram oğlu
Yüzbaşeva Rəmziyyə Eltac qızı

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İLHAM ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 8 sentyabr 2010-cu il**

# PREZİDENT TƏQAÜDÇÜLƏRİ İLƏ GÖRÜŞ





Bu il respublikanın ali məktəblərinə keçirilən qəbul imtahanlarında 1384 abituriyent 600-dən yuxarı bal toplamışdır, onlardan 7 nəfər maksimal nəticə (700 bal) əldə etmişdir. Ən yüksək nəticə göstərmiş 102 gəncə Azərbaycan Respublikası Prezidentinin 08.09.2010-cu il tarixli Sərəncamı ilə Prezident təqaüdü təyin edilmişdir.

Prezident təqaüdçülərinin 23 nəfəri Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının, 25 nəfəri Azərbaycan Tibb Universitetinin, 15 nəfəri Bakı Dövlət Universitetinin, 25 nəfəri "Qafqaz" Universitetinin, 7 nəfəri Azərbaycan Dövlət Neft Akademiyasının, 3 nəfəri Azərbaycan Dövlət İqtisad Universitetinin, 1 nəfəri Azərbaycan Milli Aviasiya Akademiyasının, 1 nəfəri Moskva Dövlət Universitetinin Bakı filialının, 2 nəfəri isə xüsusi təyinatlı təhsil müəssisələrinin tələbələridir.

Tələbə Qəbulu üzrə Dövlət Komissiyası bu il də öz ənənəsinə sadiq qalaraq ali təhsil müəssisələrinə qəbul imtahanlarında ən yüksək nəticə göstərərək Prezident təqaüdünə layiq görülmüş gənclərlə görüş keçirmişdir. Görüşü təbrik nitqi ilə TQDK-nın sədri M.Abbaszadə açmışdır.

# TQDK-nın SƏDRİ M.ABBASZADƏNİN TƏBRİK VƏ TÖVSİYƏLƏRİ



- Əziz tələbələr, sizin hamınızı TQDK-nın kollektivi adından səmimi qəlbdən təbrik edir və hər birinizə gələcək həyatınızda böyük uğurlar arzulayıram. Siz builki qəbul imtahalarında ən yüksək nəticə göstərən şəxslərsiniz. Sizin nəticələriniz Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən yüsək qiymətləndirilib və hamınız Prezident təqaüdünə layiq görülmüsünüz. Biz çox şadıq ki, ölkəmizdə sizin kimi gənclər var. İnanıram ki, sizlərin arasından gələcəkdə Azərbaycanın məşhur alimləri, müxtəlif sahələrdə yüksək nailiyyətlər əldə edən şəxsiyyətləri formalaşacaq. Çox arzu edərdim ki, ali məktəblərə qəbul imtahanlarında yüksək nəticə göstərənlərin arasından Nobel mükafatçıları da yetişsin.

Çox istərdik ki, sizin həyatınızda ilk ən yüksək uğur olan bu hadisə davamlı olsun. Bu, birinci imtahan idi ki, siz onu öz məktəbinizdə yox, ayrı bir təşkilatın – TQDK-nın münsifliyi ilə verirdiniz. Bu imtahan təsdiqlədi ki, siz gələcək həyata hazırsınız. Amma bundan sonra hələ həyat sizi çox sınayacaq, müxtəlif imtahanlar verməli olacaqsınız. Həmişə iradəli olmalı, hansı məqsədə qulluq etdiyinizi bilməli və ən əsası öz vaxtınızı heç vaxt boş-boşuna sərf etməməlisiniz.

Gün ərzində hər kəsə 24 saat vaxt verilir. Bu vaxt ərzində nələri etməlisiniz, nəyi öyrənməlisiniz,

hansı işi görməlisiniz, hər səhər duranda bu suallar əsasında plan qurmalısınız. Yatanda isə bu gün bu kitabı oxudum, bu işi gördüm, – deyə özünüzə hesabat verməlisiniz. Əgər belə etmiş olsanız, deməli, gününüz boş keçməyib. İnsanın ən böyük sərvəti Allah-Təala tərəfindən ona verilən həyat və vaxtdır. Sizin indi 17-18 yaşınız var. İnsan yaşa dolduqca başa düşür ki, onun ən böyük sərvəti gənclik yaşıdır, gənclikdə olan vaxt ehtiyatıdır. Bu vaxtı səmərəli istifadə etmək ən böyük xoşbəxtlikdir. Bu baxımdan Siz indi ən varlı insanlarsınız, çünki 17-18 yaşınız var. Bu yaşda öz biliyinizlə həmyaşıdlarınız arasında seçilmisiniz. 100 min nəfərdən artıq abituriyent arasında siz cəmi 102 nəfərsiniz. Bu, böyük kapitaldır, onu itirməyin. Əksinə, çalışın ki, bu kapitalın üstünə hər gün yeni nailiyyətlər, biliklər, bacarıqlar gəlsin.



600-700 bal toplamaq bir-iki il çalışmağın nəticəsi ola bilməz. Yəqin ki, siz təhsilə aşağı siniflərdən ciddi yanaşmısınız, yaxşı oxumusunuz, əlaçı olmusunuz. Ali məktəblərə qəbul imtahanına hazırlaşanda sizin üzərinizdə həm valideynlərinizin, həm də müəllimlərinizin ciddi nəzarəti olub. Bu nəzarət nəticəsində sizə düzgün yol göstərilib.



Sizin hamınız artıq ali məktəbi və ixtisası seçərək təhsil almağa başlamısınız. Ancaq ali məktəbdə oxumaq hələlik işin yarısıdır. Siz təhsildə fəal, aparıcı olmalı, başqalarının pis təsiri altına düşməməlisiniz.

Prezident təqaüdü almaq şərəfli olduğu qədər də məsuliyyətlidir. Bu sizə göstərilən bir etimaddır. Siz oxuduğunuz müddətdə bu etimadı doğrultmalı və bununla gündəlik həyatda, təhsildə başqalarına nümunə olmalısınız.

Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının kollektivi adından sizi bir daha təbrik edirəm. Ümidvarıq ki, siz ölkəmizin gələcək inkişafına layiqli töhfələr verə bilən yüksək səviyyəli mütəxəssislər olacaqsınız.



***Görüşün davamında Prezident təqaüdünə layiq görülən gənclərə təbrik mətni və xatirə hədiyyələri təqdim olundu. Daha sonra sənəd qəbulu, ixtisas seçimi, sınaq imtahanları, qəbul imtahanlarının təşkili, test suallarının məzmunu və qəbul kampaniyasının digər məsələləri üzrə geniş fikir mübadiləsi oldu. TQDK-nın sədri Məleykə Abbaszadə, sədr müavini Namiq Babayev, şöbə müdirləri Tarıyel Bədəlov və Arzu Bağırov tələbələri maraqlandıran sualları cavablandırdılar.***

***Görüşdə Prezident təqaüdçüləri qəbul kampaniyasının təşkili, imtahanların keçirilməsi, test suallarının məzmunu və digər məsələlər üzrə öz fikir, arzu, təklif və tövsiyələrini səsləndirdilər.Onlar qəbul imtahanının təşkilindən razı qaldıqlarını, sualların proqram materiallarını və dərslikləri əhatə etdiyini və ümumilikdə qəbul kampaniyasının yüksək səviyyədə təşkil olunduğunu qeyd etdilər. Onların rəy və təkliflərindən bəzi nümunələri təqdim edirik.***

# İMTAHANLARIN MƏZMUNU, TƏŞKİLİ VƏ GEDİŞİ İLƏ BAĞLI RƏY VƏ TƏKLİFLƏRDƏN NÜMUNƏLƏR







***Seyfəlpaşa Əliyev:*** (Bakı Dövlət Universitetinin "Hüquqşünaslıq" ixtisasının tələbəsi)
– Sənəd qəbulunun, sınaq imtahanlarının təşkili və bu sahədə abituriyentlərə internet vasitələrindən istifadə xidmətlərinin göstərilməsi Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının işinin nə dərəcədə yüksək səviyyəli olduğunun göstəricisidir. Bildiyimiz kimi, gələn il qəbul imtahanlarında açıq tipli testlərdən də istifadə olunacaq. Fikrimcə, bu tipli testlər abituriyentlərdən daha çox bilik və bacarıq tələb edəcək.

***Bünyad Feyzullayev:*** (Milli Təhlükəsizlik Nazirliyinin H.Əliyev adına Akademiyasının tələbəsi)
– Sınaq və qəbul imtahanlarında məntiqi təfəkkür tələb edən testlərə üstünlük verilsə, daha düzgün olar. Çünki Azərbaycana əzbərçi beyinlər yox, işlək beyinlər gərəklidir. Bundan əlavə, "Azərbaycan dili" fənni üzrə orfoqrafiya və orfoepiyaya aid vəsaitlər, lüğətlər nəşr etmək lazımdır ki, gələcək abituriyentlər onlardan faydalansın.

***Yusif Usubov:*** (Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Menecment" ixtisasının tələbəsi)
– TQDK tərəfindən yaradılan xidmət növləri abituriyentlərin rahatlığının təmin olunmasına yönəlib. Bütün bunlar, xüsusilə də son xidmət növlərindən olan sınaq imtahanlarına master-visa kartları ilə yazılış olduqca təqdirəlayiq haldır.

***Günel Əhmədova:*** (Azərbaycan Tibb Universitetinin "Müalicə işi" ixtisasının tələbəsi)
– Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının abituriyentlərə göstərdiyi diqqət və qayğının çox böyük əhəmiyyəti vardır. Bu qayğı olmasaydı, bəlkə də yüksək nəticə göstərən abituriyentlərin sayı aşağı olardı. Qəbul kampaniyası dövründə müxtəlif fənlərə aid bilmədiyimiz bu və ya digər məsələlər olanda bunlarla əlaqədar Komissiyaya müraciət edir, oradan da həmişə əsaslı cavab alır və bununla da problemlərimiz aradan qalxırdı. Təbii ki, TQDK-nın göstərdiyi bu diqqət və qayğı biz abituriyentlərə çox kömək olub.

Təklif edirəm ki, "Abituriyent" jurnalında dərc olunan model testlərin sayı artırılsın və onların məzmunu çətinləşdirilsin. Çünki asan suallar abituriyentləri bir növ arxayınlaşdırır. Bir də açıq tipli testlərə geniş yer verilsin.

***Ayşən Abdinova:*** (Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Hüquqşünaslıq" ixtisasının tələbəsi)

– İlk öncə abituriyentlərə yüksək qayğı göstərdiyinə görə TQDK-nın kollektivinə təşəkkür edirəm. Qəbul imtahanlarının sualları məktəb və qəbul proqramına əsaslanırdı, yəni imtahanda proqramdankənar heç bir mövzu və ya sual yox idi. Təklif edirəm ki, sınaq imtahanları təqvim ilinin əvvəlindən başlayıb qəbul imtahanlarına az müddət qalmış vaxtadək davam etsin. Bir sözlə, sınaq imtahanlarının sayı artırılsın. Sınaqlar bölgələrdə də çox keçirilsin. Sınaqların keçirilməsinə ona görə yanvar ayından başlamaq lazımdır ki, biz həmin vaxtdan nəticələrimizi, hazırlıq səviyyəmizi bilək, zəif yerlərimizi təyin edib, onları aradan qaldıraq, qarşıdakı 6 ay ərzində qəbul imtahanına necə hazırlaşdığımızı tez-tez yoxlaya bilək.





***Şəmsiyyə Quliyeva:*** (Bakı Dövlət Universitetinin "Hüquqşünaslıq" ixtisasının tələbəsi)

– İmtahanda "Azərbaycan dili" fənnindən orfoepiya və orfoqrafiya ilə bağlı suallar çətinlik yaradırdı. Bu bəhslərə aid olan köhnə nəşrlərlə yeni nəşrlər arasında fərqlər var. Yaxşı olar ki, TQDK-nın mütəxəssisləri bu sahəyə aid lüğət hazırlayıb nəşr etsinlər.

***Hazırladı: Könül Cəfərova***

# BİLİK YARIŞI REKORDÇULARI İLƏ MÜSAHİBƏLƏR

**Tələbə Qəbulu üzrə Dövlət Komissiyası əvvəlki illərdə olduğu kimi, bu il də ali məktəblərə yüksək balla qəbul olan gənclərin ictimaiyyətə tanıdılması, təcrübələrinin öyrənilməsi və yayılması məqsədilə bir sıra tədbirlər həyata keçirib. "Abituriyent" jurnalının bu sayı bütünlüklə onlara həsr edilib. Aşağıda TQDK-nın anket sorğusuna cavab verən, özü haqqında informasiya və foto şəklini təqdim edən hər bir gəncin topladığı bal, qəbul olduğu ixtisas, bitirdiyi orta məktəb haqqında məlumatlar dərc olunur. Ancaq əvvəlcə hər ixtisas qrupunda rekord nəticə – ən yüksək bal toplayan gənclərlə aparılmış müsahibələri təqdim edirik.**



***Nəriman Məmmədli: "İmtahana gedərkən inanırdım və bilirdim ki, 700 bal toplayacağam"***

***Qısa arayış:*** Məmmədli Nəriman İsmixan oğlu 1993-cü ildə Bakı şəhərində anadan olub. İbtidai təhsilini 175 saylı orta məktəbdə alıb. Sonradan Türkiyə Diyanət Vəqfi Bakı Türk Liseyinə daxil olub və cari ildə həmin liseyi əla qiymətlərlə bitirib. Atası ehtiyatda olan hərbçi, anası isə evdar qadındır. I ixtisas qrupu üzrə ən yüksək nəticə göstərib – 700 bal toplayıb, "Qafqaz" Universitetinin "İnformasiya texnologiyaları və sistemləri mühəndisliyi" ixtisasına qəbul olub.

***– Sizcə, yüksək nəticə əldə etmək üçün abituriyentdə hansı keyfiyyətlər olmalıdır?***
– Həyatda çox adamda oxumaq potensialı olur, ancaq bunu hamı lazımi səviyyədə gerçəkləşdirə bilmir. Buna görə, məncə, hamının yüksək nəticə əldə etməsi mümkün deyildir. Əsas məsələ odur ki, gərək hər bir şagird aşağı siniflərdən dərslərə ciddi fikir versin. Buna nə qədər çox nail olsa, yuxarı siniflərdə işi bir o qədər asan olar. Yuxarı siniflərdə bir - iki il hazırlaşmaqla bəlkə də hansısa nəticə əldə etmək olar, amma yüksək bal toplamaq olmaz. Odur ki, aşağı siniflərdən yaxşı oxumaq lazımdır ki, 10-11-ci siniflərdə oxuduqlarını təkrar edib sistemləşdirəsən.

Şəxsi keyfiyyətlər öz yerində, hazırlıq zamanı ailənin də dəstəyi vacibdir. Şəxsən mən əvvəlcə 700 bal toplayacağıma əmin deyildim. Ancaq valideynlərim məni 700 ballıq nəticə əldə etməyə ruhlandırırdılar. Onların hazırlığımda mənə çox böyük dəstəyi və köməyi oldu.

Məktəbdə müəllimlərim də 700 bal toplayacağımı gözləyirdilər. Qeyd edim ki, yüksək nəticə qazanmağımda onların da rolu çox olub. Sınaqda nəticələrim 680 baldan yuxarı olurdu. 2 sınaqda isə 700 bal toplamışdım. Bundan sonra artıq məndə 700 bal toplayacağıma əminlik yaranmışdı.

***– Hazırlıq dövründə vaxt bölgüsünü necə aparırdınız?***
– Əvvəllər gün ərzində 2-3 saat oxumaq mənə kifayət edirdi. İmtahana yaxın vaxtlarda isə gün ərzində 4-5 saat oxuyurdum. Qavrama qabiliyyətim yüksək olduğundan oxuduqlarım yaxşı yadımda qalırdı. Həm də aşağı siniflərdən yaxşı oxumuşdum deyə, hazırlıq dövründə öyrəndiklərim mənə yeni görünmürdü, mən onları, sadəcə, bir daha təkrarlayırdım. Onu da deyim ki, mən həm dərslərə, həm də əlavə məşğələ və istirahətə vaxt ayırırdım.

***– Qəbul imtahanında hansı hissləri keçirirdiniz, qorxu və ya həyəcan var idi?***
– İmtahana gedərkən inanır və bilirdim ki, 700 bal toplayacağam. Buna görə imtahanda özümü çox rahat hiss edirdim. Bununla belə "Sual kitabçaları" paylananadək fikirləşirdim ki, suallar çətin də ola bilər. "Sual kitabçaları" paylandıqdan sonra bu narahatlıq da yox oldu.

İmtahanda həyəcanlanmamaq, özünü itirməmək üçün sınaq imtahanlarına çox getmək lazımdır. Abituriyent sınağa nə qədər çox getsə, imtahanda bir o qədər az həyəcan keçirər.

***– Fikrinizcə, nə üçün qəbul imtahanlarında lisey və ya gimnaziya məzunları digər orta məktəb məzunlarına nisbətən daha yaxşı nəticə göstərirlər?***
– Əslində istedadlı uşaq üçün onun hansı məktəbdə oxumasının heç bir fərqi yoxdur. Lakin liseylərdə təhsil mühiti elə qurulub ki, orada şagirdlər biliklərə daha yaxşı yiyələnirlər. Liseylərdə nizam-intizam, tələbkarlıq, bilik yarışması və rəqabət də güclü olur. Bunlar isə inkişafa təkan verən amillərdir. Odur ki, tədris proqramlarında elə bir ciddi fərq olmasa da, lisey şagirdləri öz bilik göstəriciləri ilə fərqlənirlər.

***– Dediniz ki, aşağı siniflərdə dərsləri yaxşı oxumusunuz, bəs, repetitor yanına və ya hazırlıq kursuna getmək nə dərəcədə vacib idi?***
– Aşağı siniflərdə keçilən dərslər olduğu kimi yadda qala bilməz. Hazırlıq kursunda və ya repetitor yanında həmin bilikləri yenidən bərpa edirsən. Hazırlığa getmədən də qəbul imtahanında hansısa yüksək nəticə əldə edə bilərdim, amma 700 bal toplaya bilməzdim. Aşağı siniflərdə keçilənlərin hamısı yox, təxminən 70 faizi yadda qalır, qalan 30 faiz yaddan çıxır. Ona görə öyrəndiklərini təkrarlamaq, möhkəmləndirmək üçün hazırlıq kursuna getmək lazım gəlir. Ancaq mən cavabı da özündə olan sual vermək istəyirəm: əgər şagirdin möhkəm bilik bazası yoxdursa, o, hazırlıq kursunda və ya repetitor yanında nələri təkrarlamalıdır?!

***– Qəbul kampaniyası, imtahanların gedişi sizi qane etdimi? Bununla bağlı hər hansı bir təklifiniz varmı?***
– Hər şey yüksək səviyyədə təşkil olunmuşdu. İmtahan suallarının məzmunu, onların çətinlik dərəcəsi də məni qane etdi. Testlərin səviyyə etibarilə sadəsi də, orta və çətin olanları da var idi. Ancaq hamısı tədris proqramına tam uyğun idi və proqramdankənar hər hansı bir suala rast gəlmədim.

Belə bir təklifim var: qəbul imtahanları builkindən bir az tez təşkil olunsun. İmtahanların isti havalarda keçirilməsi abituriyentlərə, onların öz biliklərini tam nümayiş etdirə bilmələrinə mənfi təsir edir. Bir də istərdim ki, mümkün qədər təkrar suallardan ibarət sınaq imtahanları keçirilməsin. Hər bir sınaq imtahanında yalnız yeni suallardan istifadə olunsun. Sınaqların sayı da artırılsa, yaxşı olar.

***– İxtisas seçiminiz də, hara qəbul olduğunuz da məlumdur. Bəs nəyə görə 700 ballıq nəticə göstərdiyiniz halda, dövlət ali məktəbini deyil, özəl ali məktəbi seçdiniz?***
– Bəli, mən seçimimi etmiş və Qafqaz Universitetinin “İnformasiya texnologiyaları və sistemləri mühəndisliyi” ixtisasına qəbul olmuşam. Bu ixtisas üzrə “Qafqaz” Universitetində yaxşı təhsil verildiyi barədə əvvəlcədən məlumat almışdım. Ondan da xəbərim var ki, bəzən yüksək bal toplayan abituriyentlər dövlət ali məktəbinə daxil olur, lakin sonradan yüksək səviyyədə oxumurlar. Amma “Qafqaz” Universitetində elə bir mühit yaradılıb ki, bura daxil olan tələbə mütləq oxumalıdır.

***– Təhsil sahəsində gələcək planlarınız barədə nə deyə bilərsiniz?***
– Yaxşı oxumağa davam edəcəyəm. Gələcəkdə təhsilimi Amerika və ya Avropa ölkələrinin hər hansı birində davam etdirmək, informasiya texnologiyaları ixtisası üzrə yaxşı təhsil aldıqdan sonra Vətənimizə qayıtmaq istərdim. Əlimdən gələni edəcəyəm ki, həmin ixtisas üzrə hərtərəfli mütəxəssis olum.

***– Gələcək abituriyentlərə tövsiyələriniz, məsləhətləriniz…***
– Abituriyentlər gərək, ilk növbədə, öz potensiallarını düzgün müəyyənləşdirsinlər, hansı səviyyəli nəticə göstərə bilirlərsə, ona uyğun ixtisas seçsinlər. Hazırlıq dövründə vaxtlarından düzgün istifadə etsinlər, çox çalışsınlar, amma çalışmalarının səmərəli və keyfiyyətli olmasına nail olsunlar, vaxtı düzgün bölsünlər. Özlərinə, öz potensiallarına inansınlar. İmtahanda uğur qazanmağın ilk şərti orta məktəbin tədris proqramını yaxşı mənimsəməkdir. Məsləhət görərdim ki, bacardıqları qədər sınaq imtahanlarında çox iştirak etsinlər. Oxuduqları materialı dərk etməyə, başa düşməyə çalışsınlar. Əzbərçilikdən uzaq olsunlar. Öz bilik və qabiliyyət dərəcələrini düzgün, real qiymətləndirə bilsinlər.



***Günel Abdullayeva: "700 bal toplamaq üçün sistemli şəkildə oxumaq, vaxtdan düzgün istifadə etmək lazımdır"***

***Qısa arayış:*** Abdullayeva Günel Eldar qızı 1992-ci ildə Şəki rayonunun Dəhnə kəndində anadan olub. Kiçik Dəhnə 2 saylı orta məktəbini bitirib. Atası işləmir, anası Kiçik Dəhnə kənd kitabxanasında kitabxanaçıdır. Məktəbi orta qimətlərlə oxuyub. Ən yaxşı oxuduğu fənlər dəqiq fənlər olub. "Qafqaz" Universitetinin "Kimya mühəndisliyi" ixtisasına qəbul olub.

***– Abituriyentlər üçün əlçatmaz görünən 700 ballıq nəticəni əldə etmək üçün nələr etdiniz və bu baxımdan başqalarından nə ilə fərqləndiniz?***
– Mən 700 bal toplamışamsa, bu o demək deyil ki, 690 və ya 680 bal toplayanlar məndən az bilir və yaxud mən onlardan çox bilirəm. Bir texniki səhvlə 700 ballıq nəticəni əldə etməyə də bilərdim. 700 bal toplamaq üçün ilk növbədə sistemli şəkildə oxumaq, vaxtdan düzgün istifadə etmək lazımdır.

***– Qəbul imtahanına hazırlaşarkən hansı qaydada işləyirdiniz***
– Mən özümə dərs cədvəli qurmuşdum və tapşırıqları ona əsasən həll edirdim. Planlı şəkildə işlədiyim üçün çox da vaxt itirmirdim. Bilirdim ki, ayrı-ayrı repetitorların yanına gedəndə yollarda vaxt itkisi çox olur. Ona görə mən hazırlıq kursuna gedirdim. Burada bütün fənlərdən dərslər ardıcıl olduğu üçün əlavə vaxt itmirdi.

Həftə ərzində kursa getdiyim və getmədiyim günlər olurdu. Getmədiyim günlərdə daha çox çalışırdım. Kursa getdiyim günlərdə isə günortaya kimi oxuyur, sonra ancaq test işləyirdim. Səhərlər oxumağa daha çox vaxt ayırırdım. Gün ərzində fasilələrlə oxuyur, günorta daha çox fasilə verirdim. Fikrimcə, abituriyent imtahana hazırlaşmaq üçün gün ərzində 8-10 saat oxumağa vaxt ayırmalıdır.

***– Hazırlıq kursunda və repetitor yanında hazırlaşmağın nə kimi fərqləri var?***
– Hazırlıq kursunda hazırlaşmaq, ilk növbədə vaxt itkisinin qarşısını alır. Repetitor yanına gedəndə vaxt çox itir. Kursda hər həftə sınaq imtahanı keçirilirdi və burada verilən suallar bütün hazırlıq proqramını, mövzuları əhatə edirdi. Hər ay isə aylıq materiallar üzrə sınaq imtahanları təşkil olunur və abituriyentlər öz biliklərini yoxlayırdı. Bundan əlavə, hər ay valideyn iclası olurdu və yaxşı oxumayanların valideynlərinə bu barədə məlumat verilirdi. Amma repetitor yanına gedəndə uşaq yaxşı oxumasa da, valideynin çox vaxt bundan xəbəri olmur. Bəzən elə olur ki, uşaq vaxtını boş-boşuna sərf edir, valideyn isə repetitora pul ödəyir.

***– Yüksək nəticənin əldə olunmasında müəllimlərinizin rolunu necə qiymətləndirərdiniz?***
– Yüksək nəticə göstərməyimdə müəllimlərimin əməyi çox böyükdür. Məhz onların verdiyi yüksək biliyin sayəsində mən 700 ballıq nəticəni əldə edə bildim. Hazırlıq dövründə müəllimlərim hər bir məsələdə mənə dəstək olurdular. Ortaya nəsə bir problem çıxanda və yaxud həyəcanlı olanda dəyərli məsləhətlər verirdilər.

***– Bəs, hazırlıq prosesində ailənizin Sizə köməyi nədən ibarət olub?***
– Valideynlərim bütün hazırlıq dövründə mənə dəstək olub. Bu müddətdə evdə heç bir iş görmür, ancaq dərs oxuyurdum. Sınaq imtahanlarında hətta nisbətən zəif nəticə göstərəndə belə valideynlərim heç vaxt "niyə belə nəticə göstərdin", – deyə məni danlamırdılar. Çünki görürdülər ki, mən ciddi oxuyuram və əlimdən gələni edirəm. Həmişə mənə dəstək olur, təsəlli verir, "eybi yox, bu dəfə zəif olub, gələn dəfə düzəldərsən", – deyirdilər. Bunun da xeyli müsbət nəticəsi olurdu. Məhz belə dəstək sayəsində bir sınaqda zəif yazanda, gələn dəfə onu düzəldirdim və nəticələrim getdikcə yüksəlirdi. Qəbul imtahanına gedərkən də mənim qarşıma tələb qoymamışdılar ki, yüksək bal toplamalısan. Əksinə, valideynlərim deyirdilər ki, imkanlarından səmərəli istifadə etsən, ən yüksək bal toplaya bilərsən. Hazırda qəbul imtahanına hazırlaşan abituriyentlərin valideynlərinə demək istərdim ki, bu müddətdə uşaqlarına böyük dəstək olsunlar. Onları çox sıxmasınlar və rahat şəkildə hazırlaşmalarına şərait yaratsınlar.

***– Qəbul kampaniyasının gedişindən, təşkilindən razı qaldınızmı?***
– Bəli, imtahan zamanı hər şey çox yüksək səviyyədə təşkil olunmuşdu. Qeyd edim ki, imtahanda nəzarətçilərin də rolu böyük olur. Mən də bütün abituriyentlər kimi imtahana girərkən həyəcanlı idim. Nəzarətçilər kobud davransaydı, həyəcanım daha da artardı, amma onların təmkinli, nəzakətli davranışı sayəsində sıxıntılarım azaldı. Sual kitabçası paylandıqdan sonra isə başım onları həll etməyə o qədər qarışdı ki, həyəcanım tamamilə ötüb keçdi. Qəbul imtahanlarının təşkili, keçirilməsi məni tam qane etdi və heç bir neqativ hala rast gəlmədim. Test suallarının məzmunu da normal idi. Sualların arasında orta, çətin və sadələri də var idi. Onlar məktəb proqramına tam uyğun idi.

***– Qəbul imtahanına hazırlaşarkən maksimal nəticə göstərəcəyinizə inanırdınızmı?***
– Düzü, qəbul imtahanında 700 yox, 680-dən yuxarı nəticə gözləyirdim. Sınaqlarda bu cür bal topladığımdan qəbulda da bu nəticəni əldə edəcəyimə inanırdım.

***– Yüksək nəticə qazanmağın sirri nədədir?***
– Burada elə bir sirr yoxdur. Sadəcə, yüksək nəticə əldə etməyin şərtləri var. Ən mühüm şərtlərdən biri ayrı-ayrı mövzulara, məsələlərə yaradıcı sürətdə yanaşa biməkdir. Elə şagirdlər var ki, dərsi məcburiyyət qarşısında oxuyur, nəticədə yaddaşlarında heç nə qalmır. Amma dərsi həvəslə, maraqla, dərk etməklə oxuyanda mövzu şagirdin yadında daha yaxşı qalır. Şagirdin qavrama qabiliyyətinin də onun nəticəsinə mühüm təsiri var. Bir də özünə inam, sistemli, proqramlı, ciddi cədvəl və rejim əsasında hazırlaşmaq ¨– bunlar mütləq öz müsbət nəticəsini verir.

***– İxtisas seçimi zamanı əsas istəyiniz nə olub?***
– Əvvəlcədən qarşıma məqsəd qoymuşdum ki, “Qafqaz” Universitetinə qəbul olum. İxtisas seçimimə valideynlərimin də təsiri olub. Valideynlərim “Kimya mühəndisliyi” ixtisasında oxumağımı istəyirdilər. Ancaq mənim ən böyük arzum riyaziyyatçı olmaq olub. Odur ki, bu ixtisası bitirdikdən sonra riyaziyyat üzrə ya magistratura təhsili, ya da ikinci təhsil alacağam. Yüksək nəticə əldə etdiyim üçün başqa bir universitetin riyaziyyat ixtisasını seçə bilərdim, amma universitet kimi “Qafqaz” Universitetinə qəbul olmaq istəyirdim. “Qafqaz” Universitetində isə ancaq riyaziyyat müəllimliyi ixtisası var idi, mən isə məhz fundamental yönümlü riyaziyyat ixtisasına qəbul olmaq istəyirdim. Bununla belə “Kimya mühəndisliyi” ixtisasına qəbul olmaqdan peşiman deyiləm.



***İlkin Məsimov: “Abituriyent yüksək nəticə əldə etmək üçün ilk növbədə gündəlik dərslərə ciddi hazırlaşmalı, onları mükəmməl şəkildə öyrənməlidir”***

***Qısa arayış:*** Məsimov İlkin Natiq oğlu 1992- ci ildə Şəki şəhərində anadan olub. 1999-cu ildən Suraxanı rayonu Qaraçuxur qəsəbəsindəki 104 saylı məktəbdə, 2001-ci ildən Günəşli qəsəbəsindəki 281 saylı məktəbdə təhsil alıb. 2005-ci ildən təhsilini Yasamal rayonu Fizika, riyaziyyat və informatika təmayüllü liseydə davam etdirib və 2010-cu ildə bu liseyi başa vurub. Orta məktəbdə yaxşı və əla qiymətlərlə oxuyub. Atası “Azəryolservis”də operator vəzifəsində çalışır, anası isə evdar qadındır. 700 balla “Qafqaz” Universitetinin “Sənayenin təşkili və idarə olunması” ixtisasına qəbul olub.

***– Siz ali məktəbə qəbul imtahanında rekord nəticə göstərən abituriyentlərdən birisiniz. Yüksək müvəffəqiyyət qazanmaq üçün nə etmək lazımdır?***
– Abituriyent yüksək nəticə əldə etmək üçün ilk növbədə gündəlik dərslərə ciddi hazırlaşmalı, onları mükəmməl şəkildə öyrənməlidir. Bundan əlavə, bütün sınaq imtahanlarında iştirak etməli, öz bilik səviyyəsini müntəzəm yoxlamalıdır. İmtahana nəinki psixoloji, hətta fiziki cəhətdən də hazır olmalıdır ki, hər cür fiziki-psixoloji yorğunluğa tab gətirə bilsin. Vaxtı elə bölmək lazımdır ki, hər bir fənnə lazım olan qədər vaxt çatsın. Məncə, gündə yalnız bir fənni oxumaq düzgün deyil, fənlərin hər birinə ən azı bir saat vaxt ayırmaq lazımdır. Özü də abituriyent yalnız dərslərə deyil, istirahətə də vaxt ayırmalıdır. Məsələn, mən imtahana bir gün qalmış tam istirahət etdim, heç nə oxumadım. Ondan əvvəlki 5 gün ərzində isə fənlərin hər birinə tam bir günümü sərf etmişdim. Öz təcrübəmdən onu da deyə bilərəm ki, hazırlıq dövründə əlavə vəsaitlərdən, “Abituriyent” jurnalının

buraxılışlarından çox istifadə edirdim. Qəbul imtahanlarına hazırlıq ərəfəsində TQDK-nın nəşr etdiyi “Azərbaycan dili” və “İngilis dili” adlı dərs vəsaitləri, “Abituriyent” jurnalında dərc olunan test tapşırığı nümunələri, habelə siniflər üçün test toplularının mənə çox köməyi olub.

***– Fikrinizcə, yüksək nəticə əldə etmək üçün abituriyentin repetitor və ya hazırlıq kursuna getməsi vacibdirmi?***
– Yüksək nəticə göstərmək üçün hər bir gənc ilk öncə məktəbdə yaxşı oxumalıdır. Məktəb müəllimlərinin savadlı olması da vacib şərtdir.Aşağı siniflərdə yaxşı oxumasına baxmayaraq, şagirdin son iki ildə hazırlığa getməsi də mühüm əhəmiyyət kəsb edir. Məncə, bizim şəraitdə hazırlığa getmədən abituriyentin yüksək nəticə göstərməsi mümkün deyil. Repetitorla hazırlığın bir sıra fərqli xüsusiyyətləri var. Belə ki, əgər məktəbdə dərsdə təxminən 25 nəfər şagird iştirak edirsə, repetitor yanında 3-5 nəfər abituriyent olur, bu zaman onlar testlər üzərində daha çox çalışmaq imkanı qazanır, bilmədikləri haqqında daha çox məlumat ala bilirlər.

Hazırlıq kursunda hazırlaşmağın da fərqli cəhətləri var. Burada abituriyentlər bilik səviyyələrinə görə ayrı-ayrı qruplara bölünürlər. Buna görə onların arasında bilik yarışı, sağlam rəqabət yaranır. Məsələn, mənim düşdüyüm qrup 2-ci dərəcəli qrup idi. Bu qrupdan qəbul imtahanlarında iştirak edən 10 nəfərdən 6-sı 650-dən yuxarı nəticə göstərdi.

Hazırlıq kursunun bir üstünlüyü də ondan ibarət idi ki, burada test tapşırıqlarının həllinə daha çox önəm verilirdi. İlk aylarda hər həftə, imtahana yaxın aylarda isə hər gün sınaq imtahanları keçirilirdi. Bu da abituriyentlərin imtahana daha yaxşı hazırlaşması üçün əlverişli imkanlar yaradırdı. Nəticədə onlar sınaq və qəbul imtahanında stress keçirmir və öz biliklərini rahat şəkildə nümayiş etdirirdilər. Qəbul imtahanına hazırlığın hansı formasından istifadə etməsinə baxmayaraq, abituriyent bütün hallarda təlimdə, imtahana hazırlıqda fəal tərəflərdən biri olmalıdır.

***– İctimaiyyətdə belə bir fikir formalaşıb ki, yüksək nəticə əldə etmək istəyən abituriyent cəmiyyətdən, əlavə məşğuliyyətlərdən təcrid olunmalıdır. Belə fikirlərə münasibətiniz?***
– Bu cür fikirlərlə razı deyiləm. Mən, şəxsən hazırlıq dövründə yaxşı istirahət də edirdim, hətta son bir həftədə televizora da baxırdım. Cəmiyyətdən tamamilə ayrılmaq düzgün deyil. Bu mərhələdə istirahətə də vaxt ayırmaq lazımdır. Yadımdadır, bacım 2008-ci ildə imtahanlara hazırlaşarkən məndən çox oxuyurdu, amma o, imtahanda yüksək nəticə göstərə bilmədi. Mən isə, əksinə, istirahətə kifayət qədər vaxt ayırsam da, nəticəm yüksək oldu.

***– Yüksək bal toplamağınızda müəllimlərinizin, valideynlərinizin zəhməti nə dərəcədə olub?***
– İmtahanlara hazırlıq müddətində müəllimlər bizə bilik öyrədir, dərslərimizə nəzarət edir, hazırlıq səviyyəmizi yoxlayırlar. Valideynlərimiz isə bu dövrdə bizim başqa cür əziyyətimizi çəkirlər. Onlar bu müddət ərzində bizimlə bərabər həyəcan keçirir, yüksək nailiyyətlər əldə etməyimiz üçün əllərindən gələni əsirgəmirlər. Müqayisə aparmaq düzgün olmazdı, ancaq mənə elə gəlir, hazırlıq dövründə müəllimlər də, valideynlər də eyni dərəcədə böyük zəhmət çəkirlər.

Elə olur ki, hazırlıq dövründə valideynlərimiz bizə başqa işlərə yönəlməyi qadağan edirlər. İlk vaxtlar biz onları düzgün başa düşmürük. Amma yüksək nəticə əldə edəndən sonra dərk edirik ki, onlar nə qədər haqlı imiş. Valideynlər hər halda bizdən çox bilir və nəyin lazımlı olub-olmadığını daha yaxşı anlayırlar. Bu baxımdan, məncə, qəbul imtahanına hazırlıq dövründə valideynlərin tövsiyələrinə diqqətlə qulaq asmaq lazımdır.

***– Rekord bal toplamaqla zirvəyə – maksimal bal həddinə çatdınız. Zirvədə qalmaq üçün nələr etməyi düşünürsünüz?***
– Düzünü desəm, imtahanda 700 bal toplayacağımı gözləmirdim. Çünki sınaq imtahanlarında yüksək bal toplasam da, rekord nəticə əldə etməmişdim və bu hissi yalnız 700 bal toplayandan sonra duydum. Əlbəttə, bu nəticə ilə arxayınlaşa bilmərəm. Bu zirvədə qalmaq, universitetdə də yaxşı təhsil almaq üçün daima çalışacağam.

Mənim ən böyük arzum təhsilimi ABŞ-da davam etdirməkdir. Təhsili başa vurduqdan sonra isə Vətənə dönüb, öz ixtisasım üzrə işləməkdir.

***– Qəbul kampaniyasının gedişi, imtahan suallarının məzmunu, çətinlik dərəcəsi haqqında fikriniz? İmtahanın keçirilmə qaydaları ilə bağlı hər hansı bir təklifiniz varmı?***
– Ümumilikdə qəbul imtahanlarına hazırlıq tədbirlərindən, imtahanın təşkilindən razı qaldım.

İmtahanın məzmunu ilə əlaqədar onu deyə bilərəm ki, test sualları orta məktəbin tədris proqramına əsaslanırdı. Onların çətinlik dərəcəsi də model testlərin və sınaq imtahanlarındakı sualların çətinlik dərəcəsinə uyğun idi.

Təkliflərim də var: sınaq imtahanlarının sayının artırılmasını istərdim. Sınaq imtahanları mart – aprel aylarından deyil, ilin əvvəlindən başlansa, daha yaxşı olar. Yadımdadır, TQDK-nın keçirdiyi sınaq imtahanlarının sayı kifayət etmədiyindən, abituriyentlər başqa kursların təşkil etdiyi sınaqlarda iştirak etməyə məcbur olurdular. Digər bir təklifim isə vəsaitlərlə bağlıdır. Düzdür, TQDK, demək olar ki, bütün fənlər üzrə vəsaitlər buraxıb, amma elə fənlər var ki, onlara aid vasaitlərin çeşidini artırmaq lazımdır.  Məsələn, "İngilis dili" və "Azərbaycan tarixi" fənnlərindən əlavə vasaitlərə ehtiyac var.

***– Yüksək nəticə əldə etsəniz də dövlət ali məktəbini deyil, özəl ali məktəbi seçmisiniz, bu nə ilə bağlıdır?***
– Məncə, digər universitetlərlə müqayisədə "Qafqaz" Universitetində tədris mühiti fərqlidir. Burada xaricə getmək şansı da yüksəkdir. Eşitdiyimə görə, "Qafqaz" Universiteti Amerikanın bir çox universitetləri ilə əlaqə saxlayır. Bundan əlavə, bu universitetdə ingilis dili dərsləri yüksək səviyyədə keçirilir. Buranı bitirənlərin işə düzəlmək imkanları da böyükdür.

***– İxtisas seçiminizə kimlərin və ya nələrin təsiri olub?***
– İxtisas seçimimə heç kimin təsiri olmayıb. Bu ixtisas sırf öz seçimimdir. İqtisadçı olmağa böyük həvəsim var. Çalışacağam ki, bu ixtisas üzrə mükəmməl təhsil alıb, Prezident təqaüdçüsü şərəfli adını bütün təhsil müddətində saxlayım və yaxşı bir mütəxəssis olum.

***– Gələcək abituriyentlərə tövsiyə və məsləhətləriniz...***
– Tövsiyəm odur ki, qəbul imtahanına hazırlaşarkən müəllimlərinin və valideynlərinin sözündən çıxmasınlar. Dərslərə böyük həvəslə hazırlaşsınlar. Sınaq imtahanlarında istənilən nəticəni əldə etməyəndə ruhdan düşməsinlər, əksinə daha böyük inadkarlıqla və səylə çalışsınlar. Eyni zamanda yüksək nəticə göstərəndə "mən hər şeyi bilirəm" deyib arxayınlaşmasınlar. Durmadan, dayanmadan öz üzərlərində çalışıb, daha yüksək nailiyyətlər əldə etməyə səy göstərsinlər.



***İsmayıl Kazımov: "İmtahana gedərkən yüksək bal toplayıb Prezident təqaüdünə layiq görüləcəyimə inanırdım"***

***Qısa arayış:*** Kazımov İsmayıl Kazım oğlu 2010-cu ildə Mingəçevir şəhəri N.Gəncəvi adına 8 saylı orta məktəbi bitirib. Atası mühəndis, anası isə müəllimədir. Qəbul imtahanlarında 700 ballıq rekord nəticə göstərib "Qafqaz" Universitetinin "Sənayenin təşkili və idarə olunması" ixtisasına daxil olub.

***– II ixtisas qrupu üzrə qəbul imtahanında ən yüksək nəticə əldə edən abituriyentlərdən birisiniz. Fikrinizcə, belə yüksək uğura nail olmaq üçün abituriyentin repetitor və ya hazırlıq kursuna getməsi vacibdirmi?***
– Qəbul imtahanında yüksək nəticə əldə etmək üçün yaxşı oxumaq, vaxtdan maksimum səmərəli istifadə etmək, müəllimlərin tövsiyələrini yerinə yetirmək lazımdır.  Amma daha yüksək nəticə əldə etmək üçün, məncə, ya hazırlıq kursuna, ya da repetitor yanına getmək lazımdır. Mən şəxsən imtahana gedərkən yüksək bal toplayıb Prezident təqaüdünə layiq görüləcəyimə inanırdım. Şükürlər olsun ki, nəticə yaxşı oldu.

***– Hazırlıq kursundan, yoxsa repetitor xidmətindən istifadə etmək daha əhəmiyyətlidir və onlar arasında nə kimi fərq var?***
– Mən hazırlıq kursuna dərsdən sonra gedirdim. Kurs xətti ilə hazırlaşdıqdan sonra topladığım ballarda irəliləyiş olduğu açıq şəkildə görünürdü. Məncə, repetitor xidmətindən fərqli olaraq hazırlıq kursunda məşğələlər daha sistemli şəkildə gedir, burada mütəmadi şəkildə sınaqlar keçirilir.

***– Hazırlıq prosesində hansı vəsaitlərdən istifadə edirdiniz və vaxt bölgüsünü necə aparırdınız?***

– İlk növbədə dərslikləri yaxşı oxuyurdum. Bununla bərabər TQDK-nın nəşr etdiyi dərs vəsaitlərindən və test kitabçalarından da istifadə edirdim, gündəlik olaraq testlər həll edirdim. Vaxtı maksimum səmərəli bölməyə çalışırdım. Amma bununla bərabər fənlərin hamısına eyni dərəcədə fikir verir, aralarında fərq qoymurdum.

***– Yüksək nəticə əldə etməyinizdə müəllimlərin, valideynlərin rolunu necə qiymətləndirərdiniz?***
– Əlbəttə ki, yüksək bal toplamaq, ilk növbədə, hər bir abituriyentin öz zəhmətidir. Amma bu işdə müəllimlərin rolu da əvəzolunmazdır. Qəbul imtahanlarına hazırlaşan ərəfədə ailənin dəstəyi də abituriyent üçün vacibdir. Arzu edərdim ki, bütün valideynlər övladlarının təhsilinə diqqətli olsunlar, onların dərsdən sonra zərərli işlərə aludə olmalarına yol verməsinlər.

***– Bəzən belə fikirlər səsələnir ki, rayonlardan olan gənclər paytaxtda yaşayan abituriyentlərə nisbətən zəif nəticə göstərirlər. Sizin bu məsələyə münasibətiniz?***
– Mən bununla razı ola bilmərəm. Yerlərdə də yüksəksəviyyəli təhsil verilir. Rayonlardan olan gənclərin nəticələri ilbəil yüksəlir. Mən bunu TQDK-nın apardığı statistik təhlillərin nəticələrindən bilirəm.

***– Qəbul imtahanının təşkili, keçirilməsi və testlərin məzmunu sizi qane etdimi və bunlarla bağlı nə kimi təklifiniz var?***
– İmtahanların təşkili və keçirilmə prosesi məni tam qane etdi. Sualların məzmunu dərsliklərə və qəbul proqramına uyğun idi, onların çətinlik dərəcəsi də normal idi. TQDK-ya abituriyentlərin ürəyincə olan bir istəyimi çatdırmaq istəyirəm: sınaq imtahanlarının sayı artırılsa və daha tez başlasa, bu, onlara çox böyük kömək olar.

***– Gələcək planlarınız?***
– Ali təhsil müəssisəsinə daxil olmaqda əsas məramım peşəkar kadr kimi yetişib Vətənə, xalqa xeyirli övlad olmaqdır. Gələcəkdə təhsilimi xaricdə davam etdirmək istəyirəm. Ancaq təhsili başa vurduqdan sonra doğma Azərbaycana qayıdıb öz arzularımı reallaşdırmağı düşünürəm.



***Aydan Həsənova: "Abituriyent yüksək bal toplamaq üçün qarşısına aydın məqsəd qoymalı və bu yöndə davamlı, mükəmməl şəkildə çalışmalıdır"***

***Qısa arayış:*** Həsənova Aydan Aydın qızı 1993-cü il Bakı şəhərində anadan olub.
I sinfə Suraxanı rayonu 281 saylı orta məktəbdə, II sinfə isə 21 saylı orta məktəbdə gedib. V sinifdən Türkiyə Diyanət Vəqfi Bakı Türk Liseyində təhsil alıb. Məktəbi fərqlənmə attestatı ilə bitirib. Atası vəfat edib, anası isə AMEA-nın İnformasiya Texnologiyaları İnstitutunun sektor müdiri vəzifəsində çalışır. Qəbul imtahanında 700 bal toplayaraq Azərbaycan Tibb Universitetinin "Müalicə işi" ixtisasına qəbul olub.

***– Qəbul imtahanında yüksək bal toplamaq üçün abituriyentdə hansı keyfiyyətlər olmalıdır?***
– Abituriyent, ilk növbədə, çalışqan olmalı və özünə inanmalıdır. Heç vaxt ümidsizliyə qapılmamalıdır. Bundan əlavə, yüksək bal toplamaq üçün qarşısına aydın məqsəd qoymalı və bu yöndə davamlı, mükəmməl şəkildə çalışmalıdır. Eyni zamanda hazırlıq dövründə istirahətə də vaxt ayırmalıdır.

Mən, bir qayda olaraq, dərslərimi oxuyandan sonra mümkün qədər məktəbdə təşkil olunan kurslara gedirdim. Sonra bir saat dincəlib, yenidən dərslərə hazırlaşırdım. Dərsarası istirahətə də vaxt ayırırdım.

***– Orta məktəbi yaxşı oxuduğunuz halda repetitor yanına getmək nə dərəcədə vacib idi? Yəni özünüz müstəqil çalışmaqla bu nəticəni əldə edə bilməzdinizmi?***
– Ola bilsin ki, repetitor yanına getmədən də yüksək bal toplaya bilərdim, amma özümə tam əmin olmaq üçün repetitor yanına getməyə qərar verdim.

X sinifdə hazırlıq kursuna, XI sinifdə isə cəmi 2 ay ərzində biologiya, fizika və kimya fənlərindən repetitor yanına getmişəm.

***– Hazırlıq kursunda, yoxsa repetitor yanında hazırlaşmaq daha faydalıdır, bunların arasında nə kimi fərq var?***
– Hazırlıq kursunda dərslər daha sistemli şəkildə keçirilir, gün ərzində fənlər üzrə dərslər dəyişdiyindən beyin yorulmur. Repetitor yanına gələn uşaqlar müxtəlif səviyyəli olur, amma kurslarda uşaqlar səviyyələrinə görə qruplaşdırılır və onların arasında yüksək yarışma əmələ gəlir. Repetitor–müəllimlər müxtəlif yerlərdə yaşadığından onların yanına getmək istər-istəməz vaxt itkisinə səbəb olur. Amma kurslar eyni ünvanda olduğundan vaxt itkisinin qarşısı alınır.

***– Fikrinizcə, qəbul imtahanına yaxşı hazırlaşmaq üçün yalnız dərsliklərlə kifayətlənmək olarmı?***
– Düzdür, qəbul imtahanına hazırlaşmaq üçün dərsliklər ən əsas mənbədir, ancaq yalnız dərsliklərlə kifayətlənmək olmaz, gərək əlavə vəsaitlərdən də istifadə edəsən. Mən mütəmadi olaraq TQDK-nın nəşr etdiyi əlavə vəsaitlərdən, test kitabçalarından, “Abituriyent” jurnalının materiallarından istifadə edirdim. Xüsusilə jurnalın ilk saylarını əldə edib oradakı test nümunələrindən yararlanırdım.

***– Hazırlıq prosesində Siz başqalarından hansı xüsusiyyətlərinizlə fərqlənirdiniz?***
– Düzünü deyim ki, mən tanıdığım bir çox şagirdlər kimi gecə-gündüz oxumurdum, dərslərə hədsiz çox vaxt ayırmasam da, sistemli şəkildə çalışırdım. Bildiyim mövzuların, sualların üzərində çox dayanmırdım. Hər zaman çalışırdım ki, bilmədiyim sualları oxuyub öyrənim. Həm də aşağı siniflərdən yaxşı oxuduğum üçün hazırlıq dövründə öyrənmək mənə çətin olmadı. Bütün fənlər üzrə məktəb proqramı materiallarını yaxşı öyrəndiyimdən hazırlıq vaxtı yalnız bildiklərimi təkrarlayırdım.

Bir çox yoldaşlarımdan fərqli olaraq hazırlıq dövründə istirahətə də vaxt ayırırdım. Ancaq istirahəti də elə qururdum ki, bu zaman nəsə öyrənə bilim. Belə ki, mənim istirahətim sinif və ya hazırlıq yoldaşlarımla görüşmək olurdu. Bu zaman ancaq dərsdən danışırdıq. Mən bildiklərimi onlara çatdırır, bilmədiklərimi də onlardan öyrənib təkrarlayırdım.

***– Qəbul imtahanında 700 ballıq nəticə göstərəcəyinizə inanırdınızmı?***
– Açığını desəm, əvvəlcə özümü 700 ballıq nəticəyə tam əmin hiss etmirdim. Müəllimlərim, valideynlərim bilik imkanlarıma əsaslanıb məni ən yüksək nəticə göstərə biləcəyimə ruhlandırırdılar. Ona görə də məndə artıq imtahana qədər belə bir inam yaranmışdı. Valideynlərim, sinif yoldaşlarım, müəllimlərim bu nəticəni əldə etməkdə mənə dəstək oldular. Bu dövrdə mənə xüsusilə anamın dəstəyi çox oldu. Bəzi müəllimlərim məni aradabir danlasalar da, anam daim məni ruhlandırır, mənə inam təlqin edirdi.

***– İmtahana gedərkən hansı hissləri keçirirdiniz?***
– Sınaqlarda elə də həyəcanım olmurdu, amma qəbul imtahanında müəyyən qədər həyəcanlı idim. Sual kitabçasını alıb tanış olduqdan sonra onların asan olduğunu gördüm və həyəcanım tamamilə ötüb keçdi. Artıq məndə inam yarandı ki, 700 bal toplayacağam. Əsas həyəcan isə imtahandan sonra düzgün cavabların elanını gözləyən məqamda oldu.

***– Qəbul kampaniyasının gedişatı barədə nə deyə bilərsiniz?***
– TQDK tərəfindən sınaq imtahanlarının keçirilməsi, əlavə vəsaitlərin çap edilməsi, test imtahanının gedişi, sualların məzmunu – bütün bunlar qanedici idi. Məncə, məktəbi orta səviyyədə oxuyan hər bir şagird qəbul imtahanında normal bal toplaya bilər. Ümumilikdə imtahanlar yüksək səviyyədə keçdi və məni tam qane etdi.

***– Qəbul kampaniyasının təşkili və gedişi ilə bağlı təklifləriniz varmı?***
– İstərdim ki, sınaqların sayı çox olsun və onlar yanvar ayından başlayaraq keçirilsin. Abituriyentlərin sınaq imtahanlarında iştirak etməsi çox faydalıdır. Sınaq imtahanı sonradan qəbul imtahanında vaxtı düzgün bölməyə kömək edir, stress və gərginliyi aradan qaldırır və bu proses adi hala çevrilir. Bir sözlə, sınaq imtahanı abituriyentin qəbul imtahanına səmərəli hazırlaşmasında mühüm rol oynayır. Bildiyimiz kimi, orta məktəbdə dərslər may ayında qurtarır, təkrar dərslər başlayır. Təkrarlarda abituriyentlər daha çox şey öyrənir, lakin təkrarladıqlarını yoxlaya bilmirlər. Buna görə də yaxşı olar ki, sınaq imtahanları qəbul imtahanına yaxın vaxtlara qədər təşkil olunsun. Bir də, istərdim ki, imtahanlar 8 fəndən ibarət olsun və gənclər hərtərəfli inkişaf etsinlər.

***– İxtisas seçimi zamanı hansı amilləri rəhbər tutmuşdunuz?***

– Birincisi və başlıcası, biliyimə və istəyimə uyğun peşə seçməyə çalışmışam. Elə bir peşə ki, onun sayəsində mənim gələcəkdə insanlara bir xeyrim dəysin. Həmişə arzulamışam ki, gələcəkdə mən yaxşı həkim kimi tanınım, şəxsi istedadım və bacarığımla uğurlar əldə edim, işim həm istəyimə uyğun olsun, həm də insanlara fayda versin.

Bildiyimə görə, Tibb Universitetində II kursdan sonra yaxşı oxuyan tələbələri təhsil almaq üçün Almaniyaya göndərirlər. Mən də yenidən Azərbaycana qayıtmaq şərtilə orada təhsil almaq istərdim. Gələcək üçün böyük planlarım var. Gələcəkdə insanlara faydası olacaq kəşflər etmək istərdim. Bu gün Azərbaycanda həyata keçirilməsi mümkün olmayan əməliyyatları etmək və tibb sahəsinə yeniliklər gətirmək istərdim. Elə həkim olmaq istəyirəm ki, yanıma gələn bütün xəstələri sağalda bilim.

***– Gələcək abituriyentlərə nə kimi məsləhət və tövsiyələr verərdiniz?***

– Ən birinci məsləhətim odur ki, çox çalışsınlar, çox öyrənsinlər, çox bilsinlər. Bilik qüvvətdir. Bunun təməli aşağı siniflərdən qoyulur. Yuxarı siniflərdə isə daha fəal çalışsınlar, seçəcəkləri ixtisasa uyğun fənlərə xüsusi diqqət yetirsinlər. Hazırlıq zamanı oxumaqla bərabər sağlamlıqlarına da fikir versinlər, istirahətə də vaxt ayırsınlar. Mütəmadi olaraq sınaqlara gedib özlərini yoxlasınlar, dərsləri sistemli şəkildə oxusunlar. Biliklərinə və istəklərinə uyğun ixtisas seçsinlər. Qarşılarına yüksək nəticə əldə etməyi məqsəd qoysunlar və bunun üçün öz üzərlərində ciddi çalışsınlar.

***– Əlavə sözünüz, təklifiniz...***

– Çox istərdim ki, gələcək abituriyentlər bizdən daha yaxşı nəticələr göstərsinlər. Mən şəxsən bunun gələcəkdə belə olacağına inanıram. Abituriyent səbirli olsa, çox oxusa nəticəsi də yaxşı olar. Valideynlərə də sözüm var: xahiş edərdim onlar uşaqları imtahanqabağı çox sıxmasınlar, sərbəst buraxsınlar. Çünki uşaqları sıxanda həyəcandan və ya qorxudan nəticə də pis ola bilər. Ümumiyyəylə, cəmiyyətdə abituriyentlərə həssas münasibət olmalıdır. İnsanlar abituriyentlərə dəstək olmalı, onlarda həvəs, inam yaratmalıdırlar. Mən qəbul imtahanlarına hazırlaşarkən ətrafdakı insanlar, tanışlar, qohumlar mənə çox inanırdılar. Bu da məni həvəsləndirirdi, dəstək olurdu. Mən məhz bunun sayəsində ən yüksək nəticə əldə edə bildim.



***Esmira Baxşəliyeva: "Mən sübut etdim ki, repetitorsuz hazırlaşmaqla da imtahanda 700 ballıq nəticə əldə etmək olar"***

***Qısa arayış:*** Baxşəliyeva Esmira Qəhrəman qızı 1993-cü il Bakı şəhərində anadan olub. Sabunçu rayonu 72 saylı məktəb-liseyin məzunudur. Məktəbi əla qiymətlərlə bitirib. Atası riyaziyyatçı-mühəndis, anası isə evdar qadındır. Qəbul imtahanında 700 ballıq nəticə göstərərək Azərbaycan Tibb Universitetinin "Müalicə işi" ixtisasına qəbul olub.

***– Abituriyentlərin bir çoxuna 700 bal toplamaq əlçatmaz pillə kimi görünür. Bu pilləyə qalxmaq üçün nələr etmək lazımdır?***

– Hər şeydən əvvəl aşağı siniflərdən yaxşı oxumaq lazımdır. Yuxarı siniflərdə isə ixtisas fənlərinə daha çox fikir vermək gərəkdir. Burada abituriyentin çalışqanlıq, iradə və dözümlülük bacarığının da böyük əhəmiyyəti var. Abituriyentə ailədə hər bir şəraitin yaradılması da vacibdir. Mənim üçün bu dövrdə evdə hər cür şərait yaradılmışdı. Ayrıca bir otaq ayrılmış, sakitlik təmin olunmuşdu.

***– Qəbul imtahanında 700 bal əldə edəcəyinizə inanırdınızmı?***

– Ali məktəbə hazırlaşan hər bir abituriyent kimi mən də yüksək bal toplamaq istəyirdim. Sınaq imtahanlarında 670 baldan yuxarı nəticə göstərirdim. Buna görə qəbul imtahanında yüksək bal toplayacağıma ümid edirdim. Ancaq qarşıma 700 bal toplamağı məqsəd qoymamışdım. Əsas məqsədim 670 baldan yuxarı nəticə göstərib Prezident təqaüdçüsü olmaq idi.

***– İmtahan zamanı hansı hissləri keçirirdiniz?***

– İmtahanda sual kitabçaları paylanana qədər azca həyəcanlı idim. Amma sual kitabçasını alıb

suallarla tanış olanda və onları cavablandıra biləcəyimə əmin olanda həyəcanım tamamilə itdi. O anda fikirləşdim ki, ən azından 670-dən yuxarı bal toplaya biləcəyəm. Amma 700 ballıq nəticəni gözləmirdim, çünki kodlaşdırmada mexaniki səhv olacağından çəkinirdim. Sınaq imtahanlarında bəzən mexaniki səhv etdiyimdən qorxurdum ki, qəbul imahanında da bu cür səhvləri təkrarlayım. Ona görə mən imtahanda olduqca diqqətli və səbirli oldum ki, mexaniki səhvlərə yol verməyim.

700 bal toplayacağıma ailədə məndən çox inanırdılar, əsasən də qardaşım və atam. İlk olaraq onlar sevincdən qışqırdılar ki, 700 bal! Sonra da təbriklərin ardı-arası kəsilmədi. İlk gün sevincdən az qala şoka düşmüşdüm. Çox həyəcanlı olduğumdan ən yüksək nəticə toplamağım mənə hələ bütün dərinliyi ilə çatmırdı. 2-3 gün ərzində aldığım təbriklərdən sonra anladım ki, rekord nəticə əldə etmişəm.

***– Fikrinizcə, abituriyentin repetitor yanına getmədən yüksək bal toplaması mümkündürmü?***
– Əlbəttə, mümkündür. Mən qəbul imtahanına repetitor yanına getmədən hazırlaşmışam. Ümumiyyətlə, abituriyentin repetitor yanına getməsinə pis baxmıram, əgər repetitorla hazırlaşmaq abituriyentə kömək edirsə, bu, normal haldır. Abituriyentlər özləri müstəqil hazırlaşmaqla da yüksək nəticə əldə edə bilərlər. Repetitor sadəcə abituriyentin məsuliyyətini artırır. Amma müəyyən bilik bazası olan hər bir abituriyent özü də müstəqil şəkildə hazırlaşa bilər. Əgər abituriyent özünə qarşı tələbkardırsa, məsuliyyətlidirsə, valideynin və ya müəllimin göstərişi olmadan öz üzərində ciddi çalışırsa, o zaman o, repetitor yanına getməyə bilər. Hazırlıq zamanı müəllim səni, sadəcə, istiqamətləndirir, çox şey sənin özündən asılı olur. Mən sübut etdim ki, repetitor xidmətindən istifadə etmədən, müstəqil surətdə hazırlaşmaqla da 700 ballıq nəticə əldə etmək olar.

***– Hazırlıq prosesində fənlər arasında vaxtı necə bölürdünüz?***
